**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Qərar № 10-q
“29” sentyabr 2015- ci il

**Sədr**

_______________

**R. Aslanlı**

# Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin nizamnamə kapitalının minimum miqdarı və onun formalaşdırılması haqqında Qaydalar

## 1. Ümumi müddəalar

**1.1.** Bu Qaydalar “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun 61.9-cu və 31.3-cü maddələrinə (bundan sonra-Qanun) müvafiq olaraq hazırlanmışdır və investisiya şirkətinin, fond birjasının, klirinq təşkilatının və investisiya fondunun depozitarının nizamnamə kapitalının minimum məbləğini və onun formalaşdırılması qaydalarını tənzimləyir.

## 2. İnvestisiya şirkətinin, fond birjasının, kliriNq təşkilatının və investisiya fondunun depozitarının nizamnamə kapitalının minimum məbləği

**2.1.** Fond birjasının nizamnamə kapitalının minimum məbləği 1 (bir) milyon manat həcmində müəyyən edilir.

**2.2.** Klirinq təşkilatının nizamnamə kapitalının minimum məbləği 1 (bir) milyon manat həcmində müəyyən edilir.

**2.3.** İnvestisiya fondunun depozitarının nizamnamə kapitalının minimum məbləği 1(bir) milyon manat həcmində müəyyən edilir.

**2.4.** Qanunun 30.3.1-30.3.4-cü maddələrində müəyyən edilmiş əsas investisiya xidmətlərinin və həmin Qanunun 30.4-cü maddəsində müəyyən edilmiş yardımçı investisiya xidmətlərinin göstərilməsi üçün investisiya şirkətinin (B kateqoriya) nizamnamə kapitalının minimum məbləği 75 (yetmiş beş) min manat həcmində müəyyən edilir.

**2.5.** Qanunun 30.3.5-30.3.7-ci maddələrində nəzərdə tutulmuş əsas investisiya xidmətlərin göstərilməsi üçün investisiya şirkətinin (A kateqoriya) nizamnamə kapitalının minimum məbləği 300 (üç yüz) min manat həcmində müəyyən edilir.

## 3. İnvestisiya şirkətinin, fond birjasının, klirinq təşkilatının və investisiya fondunun depozitarının nizamnamə kapitalının formalaşdırılması qaydaları

**3.1.** İnvestisiya şirkətinin, fond birjasının, klirinq təşkilatının və investisiya fondunun depozitarının nizamnamə kapitalının ödənilməsi yalnız pul vəsaitləri ilə həyata keçirilir.

**3.2.** İnvestisiya şirkətinin, fond birjasının, klirinq təşkilatının və investisiya fondunun depozitarının nizamnamə kapitalının formalaşdırılması və ya artırılması zamanı səhmlərinin yerləşdirilməsindən daxil olmuş pul vəsaitləri klirinq təşkilatının üzvü olan banklarda açılmış xüsusi hesabda saxlanılır. Bu vəsaitlər

səhmlərin emissiyasının yekunları haqqında hesabat təsdiq edilənədək yalnız həmin banklarda depozit şəklində və ya qısamüddətli dövlət qiymətli kağızlarına yerləşdirilə bilər.

**3.3.** Emissiyanın yekunları haqqında hesabat təsdiq edildikdən sonra həmin vəsaitlər investisiya şirkətinin, fond birjasının, klirinq təşkilatının, investisiya fondunun depozitarının biznes planına uyğun olaraq istifadə edilir.

## 4. Keçid müddəalar

**4.1.** Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətinə (fond birjası, depozitar, klirinq, broker, diler və aktivlərin idarəedilməsi fəaliyyəti) lisenziya almış və məhdud məsuliyyətli cəmiyyət formasında fəaliyyət göstərən şəxslər Qanun ilə müəyyən edilmiş müvafiq fəaliyyətin həyata keçirilməsi üçün lisenziyasının alınması zamanı səhmdar cəmiyyəti formasında yenidən təşkil edildikdə onların nizamnamə kapitalının ödənilməsi pul vəsaitlərindən əlavə səhmdar cəmiyyətlər haqqında Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 103.1-ci maddəsi ilə müəyyən edilmiş digər əmlak ilə həyata keçirilir.

**4.2.** Bu Qaydaların 4.1-ci bəndi ilə nəzərdə tutulmuş tələblərə uyğun olaraq formalaşdırılmış nizamnamə kapitalının həcmi hüquqi şəxsin yenidən təşkil olunmasından əvvəlki tarixə tərtib olunmuş və kənar auditor rəyi ilə təsdiq edilmiş sonuncu hesabatında əks olunmuş məcmu kapitalından artıq ola bilməz.